# CİNLƏR ALƏMİ

***- YARADILIŞLARI VƏ XÜSUSİYYƏTLƏRİ -***

SUNNA.AZ

# CİNLƏRİN YARADILMASI VƏ İBLİSİN QİSSƏSİ

Cinlər kimlərdir, hansı formadadırlar, nədən yaranmışlar, harada yaşayırlar, niyə onları görmürük, insana düşməndirlərmi? Bu kimi suallar çoxumuzu düşündürən, narahat edən ən maraqlı suallardandır.

Müsəlman olan, qeybə inanan hər bir kəs cinlərin mövcudluğuna inanır, onlar barədə varid olmuş şəriət dəlillərinə boyun əyir. Cinlərin mövcud olması demək olar ki, bütün dinlərdə, bütün kitablarda öz təsdiqini tapmışdır. Lakin, İslam dini təhrifdən qorunmuş yeganə din olduğuna görə, Quran və Sünnədə varid olmuş xəbərlər, ən etibarlı, ən doğru xəbərlərdir.

Uca Allah Qurani-Kərimdə Cinlər barəsində belə buyurmuşdur:

**“O, insanı saxsı kimi quru gildən yaratdı. Cinləri də təmiz oddan yaratdı. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?”** ***(ər-Rahmən surəsi 14-16-cı ayələr)***

**“Biz insanı başqa şəklə düşmüş qara palçıqdan, toxunduqda saxsı kimi səs çıxaran quru gildən yaratdıq. Cinləri isə daha öncə qızmar alovdan yaratmışdıq”** ***(əl-Hicr surəsi 26-27-ci ayələr).***

Xanım Aişədən rəvayət olunur ki, Allah Rəsulu ﷺ belə buyurmuşdur: *"Mələklər nurdan, cinlər oddan, Adəm isə torpaqdan yaradılmışdır."*

Cinlərin yer üzərində necə məskunlaşmaları barədə müxtəlif rəvayətlər varid olmuşdur. Təfsirçilərin bəzilərinə görə cinlər, Adəm peyğəmbərdən əvvəl yaradılmışlar. Onlardan əvvəl yer üzündə hin və bin deyilən (cin ilə insan arasında) varlıqlar var idi. Uca Allah cinləri bunlara hakim qılmış,

cinlər də bunların bir qismini öldürmus, bir qismini də Yer kürəsindən sürgün etmişdilər. Sonra da yer üzərində özləri məskunlaşmışdılar.

Quranın mənalarını ən yaxşı bilən İbn Abbasdan nəql olunur ki, *"Cinlər, yer üzündə fəsad çıxarıb qan tökdükdən sonra Uca Allah mələklər ordusu ilə birlikdə üzərlərinə İblisi göndərib. İblis və ordusu onların bir qismini öldürmüş, bir qismini isə yer üzündən dənizdəki adalara sürgün etmişlər".*

İbn Məsud və bəzi səhabələrdən rəvayət olunur ki, Uca Allah yer üzərində istədiyi məxluqları yaratdıqdan sonra İblisi dünyadakı mələklərin üzərinə əmir təyin etmişdir. İblis cinlər qəbiləsindən idi. Onlara cin deməsinin səbəbi onların Cənnət gözətçiləri olmalarına görə imiş. İblis Cənnət keşikçisi ikən ürəyindən belə bir fikir keçdi: *"Allah digər mələklərdən üstün olduğum üçün məni onlara əmir təyin edib. Bunu məndəki bir üstünlüyə görə edib".*

Cinlərin mələklərin bir növü olması barədə də bəzi xəbərlər varid olmuşdur. Peyğəmbərimizin ﷺ əmisi oğlu İbn Abbas söyləmişdir ki, *"Günah işləmədən əvvəl İblisin adı Əzazil idi və yer üzündə yaşayardı. Mələklərin ən çox ibadət edəni, çox elmli olanı və cin deyilən bir mələk qəbiləsindən idi. Mələklərin dörd qanadlılarından və ən şərəflilərindən olub, Cənnət keşikçisi idi. Dünya səmasının idarəsi və nəzarəti ona verilmişdir. Yer üzünün əmiri olub, yer ilə göy arasındakı işləri idarə edirdi".*

Böyük İslam alimlərindən olan Həsən əl-Bəsri və digər təfsir alimləri İblisin bir an belə mələklərdən olmadığını, cin əsilli olduğunu, Adəmin bəşəriyyətin əsli olduğu kimi eynilə onun da cinlərin əsli və atası olduğunu söyləmişlər.

Bu alimlərə görə İblis, mələklər tərəfindən qovulan cinlərdəndir. Mələklər onları yər üzərində törətdikləri

fəsadlara görə öldürmüş, qovmuş, bəzilərini də əsir götürərək səmaya aparmışdılar".

Daha sonra Uca Allah Adəmi yaradır ki, o və zürriyəti yer üzərində məskunlaşsınlar.

Həmin vaxt cinlərin başçısı və ən çox ibadət edəni olan İblis (Əzazil) gəlib Adəmin cəsədinin ətrafında dolaşmış, cəsədin içinin boş olduğunu gördukdə onun hər hansı bir şeyə qadir olmayan bir məxluq olduğunu hesab etmiş və Adəmin cəsədinə xitabən belə demişdir: *"Əgər sənə hakim olsam səni məhv edərəm, əgər sən mənə hakim olsan sənə qarşı gələr, asi olaram"!*

Uca Allah Adəmə öz ruhundan üfürdüyü zaman mələklərə ona səcdə etmələrini əmr etdi. O zaman İblisin qəlbi həsədlə doldu və Adəmə səcdə etməkdən boyun qaçıraraq belə söylədi: "**Mən ondan daha xeyirliyəm, çünki sən məni oddan, onu isə palçıqdan yaratdın**". ***(Sad surəsi 76-cı ayə).*** Əmrə müxalif olub Əziz və Cəlil olan Allaha etiraz etdi. Yalan danışdı, təkəbbürlük göstərdi və buna görə də Rəbbinin rəhmətindən uzaqlaşdırıldı.

Etdiyi ibadətlərlə yüksəlmiş olduğu mərtəbəsindən düşdü və hər şeyi puç etdi.

Doğru görüş odur ki, İblis mələklərə bənzəsə də onların cinsindən deyildi. Çünki, o oddan, mələklər isə nurdan yaradılmışdır. Ən çox ehtiyacı olduğu bir anda təbiəti (yaradılışı) özünə xəyanət etdi, yaradılış maddəsi olan od kimi davrandı. Bu barədə uca Allah belə buyurmuşdur:

**"Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– demişdik. İblisdən başqa hamısı səcdə etdi. İblis cinlərdən idi. O, Rəbbinin əmrinə boyun əymədi. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və onun nəslini**

**özünüzə dostmu tutursunuz? Zalımlar üçün bu necə də yarıtmaz mübadilədir!"** *(əl-Kəhf surəsi 50-ci ayə)*

**"Bir zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan yaradacağam. Mən ona surət verib Öz ruhumdan üfürdüyüm zaman ona səcdə edin!". Mələklərin hamısı birlikdə səcdə etdi, yalnız İblisdən başqa! O təkəbbür göstərdi və kafirlərdən oldu. Allah dedi: "Ey İblis! Sənə Mənim iki əlimlə yaratdığıma səcdə etməyə mane olan nə idi? Təkəbbür göstərdin, böyüklərdənmi olmuşdun?" İblis dedi: "Mən ondan daha xeyirliyəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!" Allah dedi: "Çıx oradan! Sən artıq (rəhmətimdən) qovulmuşsan! Haqq-hesab gününə qədər lənətim sənin üzərində olacaqdır!"** ***(Sad surəsi 71-78-ci ayələr)***

Böyük alim Həsən əl-Bəsri demişdir ki, İblis özünün oddan, Adəmin isə gildən yaradıldığını və buna görə də ondan üstün olduğunu deyərək özünü onunla müqayisə etdi. Dəlilə qarşı ilk qiyas edən də o olmuşdur.

Əgər qiyas açıq-aydın, qəti dəlilə, əmrə ziddirsə keçərsizdir. Qaldı ki, onun bu müqayisəsi isə özlüyündə yanlış və keçərsiz bir müqayisə idi. Çünki, torpaq atəşdən daha yararlı və daha üstündür. Ona görə ki, palçıqda (torpaqda) durğunluq, yumşaqlıq, ağırlıq və məhsuldarlıq vardır. Atəşdə isə sərtlik, müvazinətsizlik, tələskənlik və yandırma vardır.

Beləliklə, İblis bütün körpüləri yandıraraq, Rəbbinin yanındakı məqamından düşdü və Cənnətdən qovuldu. Allah ona orada yaşamağı qadağan etdi.

Bu səbəblə lənətlənmiş, alçalmış, qovulmuş oldu və yer üzünə endi. Özü və zürriyəti, Adəmə və onun zürriyyətinə düşmən kəsildi. O, daim Adəm övladlarını hər cür hiylə ilə azdırmağa və yoldan çıxarmağa çalışır.

Uca Allah bu barədə belə buyurmuşdur:

**“İblis dedi: "Məndən üstün tutduğuna bir bax! Əgər Qiyamət gününə qədər mənə möhlət versən, az bir qismindən başqa onun bütün nəslini özümə ram edəcəyəm". Allah buyurdu: "Çıx get! Onlardan kim sənə uysa, tam bir əvəz kimi cəzanız Cəhənnəm olacaqdır. Onlardan gücün çatdığı kimsələri səsinlə günaha təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər. Əslində, Mənim ixlaslı qullarım üzərində sənin hökmün olmayacaqdır. Qoruyan olaraq Rəbbin yetər” (əl-İsra surəsi 62-65-ci ayələr).**

Ayədə deyildiyi kimi, İblisdən ancaq Allahın ixlaslı qulları qorunacaqdır. İxlaslı qulluq sözünün mənası isə qulluğu, yəni, ibadəti xalis olaraq Allaha yönəltmək, ibadətdə, duada heç nəyi Allaha ortaq, şərik qoşmamaq, Allahın əmr və qadağalarını öz nəfsi istəklərindən belə üstün tutmaqdır. İxlaslı qullardan başqa bütün insanlar, İblisin və şeytan cinlərin hökmünə düşəcək, onlara qul olacaq və qorunmalı olduğu düşmənlərinin əsirinə çevriləcəkdir.

**“Ey Adəm övladları! Məgər Mən sizə buyurmadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşməninizdir”** ***(Ya Sin surəsi 60-cı ayə).***

## CİNLƏRİN GÖRÜNÜŞLƏRİ VƏ VƏSFLƏRİ

Filmlərdə, rəsmlərdə və müxtəlif materiallarda buynuzlu, qanadlı, çox vaxt qırmızı rəngə çalan cin, şeytan obrazlarını çoxumuz görmüşük. Görəsən, bu görüntülər reallığı əks etdirirmi?
*Onlar həqiqətdə necədirlər?*
*Nədən yaranmışlar?*
*Görünüşləri necədir?*
*Hansı cildə girə bilirlər?*
Hörmətli oxuyucular! Cinlər aləmi qeyb aləmi olduğuna görə, onlar haqqında deyilən bütün sözlər şəriət dəlillərinə, Qurana və Sünnəyə söykənməlidir. Çünki, qeyb məsələlərini öyrənməyin, dərk etməyin bundan başqa yolu yoxdur. İnsan ağlı ona gizli olan şeyləri, qeybi dərk etməkdə acizdir.

• **<u>Cinlər tüstüsüz oddan yaranmışlar və tək Allaha ibadət etməklə əmr olunmuşlar</u>:**
Cinlər bəzilərinin Qurana zidd olaraq iddia etdikləri kimi xəyali varlıqlar yox, həqiqi məxluqlardır. Uca Allah Öz kitabında insanı yaratmazdan əvvəl cinləri tüstüsüz oddan yaratdığını bildirmişdir. Həmçinin, uca Allah onları da insanlar kimi Allahı ibadətdə təkləşdirmələri, Ona ibadət etmələri üçün yaratdığını bildirmişdir.
**"Cinləri isə daha öncə qızmar alovdan yaratmışdıq" *(Hicr surəsi 27-ci ayə).***
**"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım"*(əz-Zəriyət surəsi 56-cı ayə).***

• **<u>Cinlər qeybdə olan, gözə görünməyən məxluqlardır</u>:**

Ərəb dilinin qaydalarına görə "Cim" – yəni "C" hərfi və "Nun" - "N" hərflərindən formalaşan sözlər gizli, örtülü mənalarını verir. Onlar insanlardan gizli qaldıqlarına görə belə adlandırılmışlar. Onları həqiqi görkəmlərində görmək mümkün deyildir. Ancaq peyğəmbərlər möcüzə olaraq müəyyən hallarda onları öz görkəmlərində görmüşlər.

Uca Allah bu barədə belə söyləmişdir:

**"Şübhəsiz ki, o və onun nəsli sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər"(əl-Əraf surəsi 27-ci ayə).**

Həmçinin Peyğəmbərimiz ﷺ belə demişdir:

*«Cin tayfasından bir ifrit, dünən gecə namazımı pozdurmaq üçün mənə qəflətən hücum etdi, amma Allah Təala məni qalib edib ona istədiyimi etməyə fürsət verdi. Səhər olunca hamınız onu görüb seyr edəsiniz deyə məscidin dirəklərindən birinə bağlamaq istədim. Lakin, qardaşım Süleyman peyğəmbərin: "Ey Rəbbim! Məni bağışla. Mənə, məndən sonra heç kimin əldə edə bilməyəcəyi bir hökmranlıq ver. Sən, şübhəsiz ki, daim bəxşiş edənsən" demiş olduğunu xatırladım və onu zəlil edərək qovdum.» (Buxari 4530)*

Bəzi alimlər nəql etmişlər ki, dünyada bizim onları görə bilməməyimiz, onların isə bizi görə bilmələri müqabilində, Axirətdə möminlər cinləri öz görkəmlərində görəcək, cinlər isə insanları görə bilməyəcklər. Ən doğrusunu Allah bilir.

• **<u>Cinlərin görünüşü necədir</u>?**

Ümumiyyətlə, cinlərin görünüşlərinin necə olması barədə dəqiq, səhih məlumat çox azdır. Qeyd etdiyimiz kimi onları həqiqi görkəmlərində görmək mümkün deyildir.

Artıq birinci hissədə İblisin Allaha asilik etməzdən öncə adının Əzazil və 4 qanadının olmasını qeyd etmişdik. Bir

çox alimlər söyləmişlər ki, asilikdən öncə onun çox gözəl görünüşü var idi. Asilikdən və Cənnətdən qovulmasından sonra isə gunahının aqibəti olaraq ən eybəcər və iyrənc şəklə düşdü.

Nəfslərə şeytanların, yəni kafir cinlərin çirkinliyi, mələklərin isə gözəl yaradılışı yerləşdirilmişdir. Buna görə də Uca Allah Cəhənnəmdə yerləşən Zəqqum agacının çirkinliyini, dəhşətini vəsf edərkən belə buyurmuşdur: "**Onun meyvəsi şeytanların başları kimidir**" ***(əs-Saffat surəsi 65-ci ayə).*** Onun meyvəsinin çirkinliyini şeytanların başlarına bənzətmişdir.

Yusuf peyğəmbərin gözəlliyini gördükləri zaman isə qadınlar belə demişdilər: **"Allah saxlasın! Bu ki, bəşər deyil. Bu ancaq hörmətə layiq bir mələkdir!"** ***(Yusuf surəsi 31-ci ayə)***

• **<u>Cinlər insan, ilan, əqrəb, qara it, qara pisik və digər heyvan cildinə girə bilirlər</u>:**

Həqiqi görkəmlərinin əksinə, onlar bu cildlərə girdikdə insana görünürlər.

Bu barədə bir çox hədislər varid olmuşdur:

İmam Buxari Əbu Hureyranın (Allah ondan razı olsun) belə dediyini rəvayət etmişdir: *"Peyğəmbər  mənə Ramazan zəkatının keşiyini çəkməyi tapşırmışdı. Bir nəfər gəlib yeməkdən götürdü və mən onu tutdum. Ona dedim: "Səni mütləq Peyğəmbərin  yanına aparacam." - sonra Əbu Hureyra hədisin davamını danışdı - Gələn dedi: "Yatağına girdikdə "Kürsi" ayəsini oxu. Belə etsən, Allah dərgahından bir keşikçi yanında olaraq səni davamlı qoruyar və səhər açılana kimi şeytan sənə yaxınlaşmaz".*

Bu hadisəni Peyğəmbərə ﷺ danışdıqda o belə demişdir: *"Yalançı olmasına baxmayaraq sənə doğru deyib. Heç bilirsənmi o kim idi, ey Əbu Hureyra? O, şeytan idi." (Buxari 3275)*

Böyük Quran müfəssiri imam İbn Cərir ət-Təbəri öz təfsirində nəql edir ki, Bədr döyüşü öncəsi Qureyş müşrikləri Peyğəmbərin ﷺ üzərinə qoşun çıxarmaq barədə müşavirə edərkən tərəddüdə düşürlər. Bu zaman İblis, bəni Kənənənin başçılarından olan Səraqa ibn Məlik bin Cə'şəmin cildinə girib "Mən sizin yanınızdayam" deyərək onları həvəsləndirir və onlar tələsərək döyüşə çıxırlar. *İbn Cərir Təbəri, Təfsir 12564, İbn Kəsir, Əl-Bidəyə (5/62)*

Həmçinin, Peyğəmbər ﷺ belə demişdir:

*"Cinlər 3 növdür. Birinci növün qanadları var, uçurlar. İkinci növ ilan və köpəklərdir. Üçüncü növ isə məskən salıb səfər edənlərdir".* Hədisi Tahavi *(Müşkil əl-əsər 4/95)* və Tabarani *(Kəbir 22/214)* səhih sənədlə rəvayət etmişdir".

Başqa bir hədisdə Peyğəmbər ﷺ belə demişdir:

*"Həqiqətən, Mədinədə İslama girmiş cinlər var. Biriniz evlərdə yaşayan ilanlardan gördükdə onu 3 dəfə səsləsin, getməsini tələb etsin. Bundan sonra getməsə, öldürsün. Çünki, o şeytandır. Yəni, müsəlman cin deyil". (Muslim 2236).*

İmam İbn Cərir Ət-Təbəri təfsirində İblisin Adəmə vəsvəsə verməsi üçün Cənnətə ilan cildində girdiyini nəql etmişdir.

Bilməliyik ki, cinlər saleh insanların və övliyaların cildinə girməklə, bir çox insanı azdırmışlar. Böyük alim Əhməd Əbu Abbas (ibn Teymiyyə) belə demişdir:

"Cinlər bir çox hallarda ölmüş və ya uzaqda olaraq çağırışları eşitməyən şəxslərin cildinə girirlər. Onları çağıran, dua edən, köməyə çağıran sapıq şəxslərə o kəslərin

cildində görünərək cavab verirlər. Yalvaran da zənn edir ki, yalvardığı özü ona cavab verir. Halbuki, ona cavab verən sadəcə şeytandır. Bu şey həm xristianlardan olan kafirlərin həddi aşaraq aşırı müqəddəsləşdirdikləri diri və ölüləri çağırdıqları zaman, həm də özlərini İslama nisbət edən şirk və azğınlıq əhlinin ölüləri və qeybdə olanları çağırdıqları zaman baş verir. Şeytan həmin dua edilən, köməyə çağrılan şəxsin cildində onlara görünür, onlar isə bunu başa düşmürlər." *(Məcmu Əl-Fətava 19/47)*

• **<u>Cinlər qidalanırlar, doğulurlar, ölürlər</u>:**
Müsəlman cinlər Peyğəmbərin yanına onlara və heyvanlarına halal olan qidalar barəsində soruşmaq üçün gəlmişlər. Peyğəmbər də onlara bunu bəyan etmişdir: *"Yanıma bir dəstə cin gəlmişdi, nə gözəl cinlər idi, məndən qidaları barədə soruşdular. Allaha dua etdim ki, tapdıqları bütün sümüklərdə özləri üçün, təzəklərdə də heyvanları üçün mütləq qida olsun" (Buxari 3571)*
Həmçinin, "Bismilləh" deməyən, sol əli ilə yeyən kəsin yeməyinə və içməyinə şeytanların şərik olması səhih xəbərlərdə varid olmuşdur. Bütün bunlarla yanaşı onların qidalanmalırının hansı şəkildə baş verməsi qeybi məsələdir və keyfiyyətini ancaq Allah bilir.
Cinlərin artmasına gəlincə, bu Quranla sabit olmuşdur. Uca Allah Kəhf surəsində onların zürriyyətlərinin olmasını bildirmişdir. Zürriyyətin olması isə doğulma, nəsil artma mənasına dəlalət edir. Həmçinin, bir çox alim bu ayədən cinlərin evlənərək artmasını fəhm etmişdir.
**"Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– demişdik. İblisdən başqa hamısı səcdə etdi. İblis cinlərdən**

**idi. O, Rəbbinin əmrinə boyun əymədi. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və onun nəslini özünüzə dostmu tutursunuz? Zalımlar üçün bu necə də yarıtmaz mübadilədir!"** ***(əl-Kəhf surəsi 50-ci ayə)***
Cinlərin cinsi əlaqədə ola bilmələrinə gəlincə, bu barədə bəzi xəbərlər varid olmuşdur. İsra surəsi 64-cü ayədə **"övladlarına şərik ol"** sözlərinin təfsirində Bəğəvi Cəfər bin Muhamməd və İbn Abbasdan nəql etmişdir ki, "Bismilləh" demədən yaxınlıq edən şəxsə şeytan şərik olur və bu işi həyat yoldaşına qarşı edir.
Həmçinin, cinlərin insanlarla evlənmələri barədə bəzi xəbərlər varid olmuşdur. Lakin, bunların səhihliyinə heç bir etibar yoxdur. Bu xəbərlər Quranda Nəhl surəsi 72 və Rum surəsi 21-ci ayələrdə keçən **"özünüzdən olan zövcələr"**, yəni, öz cinsinizdən olan zövcələr mənasına ziddir.
Cinlərin necə artmasına gəlincə, bəzi müfəssirlər onun bir budunda kişi, digər budunda isə qadın cinsiyyət orqanının olmasını, özü-özü ilə mayalandığını və hər gün 10 yumurta qoyduğunu, hər yumurtadan da 70 şeytanın çıxdığını söyləmişlər. Lakin, bu cür sözlərin heç birinə etibar etmək olmaz. Çünki, Quran və səhih sünnədə bu barədə heç nə nəql olunmamışdır. Əbu Bəkr Əl-Bərqaninin Müsnədində Peyğəmbərdən nəql edilən bir hədisdə *"şeytanın bazarlarda yumurtaladığı"* söylənilir. Lakin, ərəb dilində bu söz qəti olaraq yumurtalamağa dəlalət etmir. *(Ədvəul Bəyan 3/1218)*
Cinlərin ölməsinə gəlincə, növbəti ayənin ümumi mənasi buna dəlildir: "**Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!"** ***(əl-Ənbiya surəsi 35-ci ayə)***
Uca Allah ən doğrusunu biləndir.

## CİNLƏRİN SAHİB OLDUQLARI BACARIQLAR

Cinlərin insanlardan fərqli olması, qeyri-adi güclərə malik olması barəsində çox oxuyur, çox eşidirik.
*Hansı fövqəlbəşər qabiliyyətləri var?*
*Nə yeyirlər? Necə artırlar? Necə ölürlər?*

• **Cinlərin hansı qabiliyyətləri vardır?**
Cinlər uça bilirlər. Artıq birinci hissədə Əzazilin, yəni, İblisin Cənnətdən qovulmamışdan öncə 4 qanadının olmasını söyləmişdik.
Bu barədə Quranda və səhih hədislərdə danışılmışdır:
**"Biz səmaya qalxdıqda onun sərt gözətçilər və yandırıb-yaxan alovlarla dolu olduğunun şahidi olduq. Biz əvvəllər gizlicə qulaq asmaq üçün göyün bəzi sahələrində oturardıq. Amma kim bunu indi etmək istəsə, o, pusquda gözləyən yandırıcı alova rast gələr" (əl-Cin surəsi 8-9–cu ayələr).**
Həmçinin, Peyğəmbər ﷺ belə demişdir:
*"Cinlər 3 növdür. Birinci növün qanadları var, uçurlar. İkinci növ ilan və köpəklərdir. Üçüncü növ isə məskən salıb səfər edənlərdir".* Hədisi Tahavi *(Müşkil əl-əsər 4/95)* və Tabarani *(Kəbir 22/214)* səhih sənədlə rəvayət etmişdir.
Üstəlik cinlər çox sürətlidirlər. Bir yerden digər yerə inanılmaz sürətlə hərəkət edirlər.
**"Süleyman dedi: "Ey əyanlar! Onlar müti olaraq yanıma gəlməmiş hansınız onun taxtını mənə gətirə bilər? Cinlərdən çox qüvvətli birisi dedi: "Sən məclisdən qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə**

**çox qüvvətliyəm, etibarlıyam!"** ***(ən-Nəml surəsi, 38-39-cu ayələr).***

İnsana daxil olub, qan-damarlarında gəzə bilirlər. Bunu necə etdiklərini ancaq Allah bilir. Peyğəmbər ﷺ şeytanın insanın qan-damarlarında hərəkət etməsini bildirmişdir. Növbəti səhifələrdə şeytanın insana hansı növ təsirlərinin olması və bu təsirlərdən qorunma yolları barədə geniş danışacağıq.

Cinlər həmçinin suya dala və dalğıcılıq edə bilirlər.

**"Şeytanlar arasından onun üçün dəniz sularına dalıb dalğıclıq edən və bundan başqa digər işlər görənlər də var idi"** ***(əl-Ənbiya surəsi 82-ci ayə).***

Cinlərin hansı işlər görə bilmələrinə gəlincə, Quranda onların Süleyman peyğəmbərin ordusunda olmaları, bənnalıq, dalğıclıq etmələri zikir edilmişdir.

**"Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsinlər"** ***(ən-Nəml surəsi 18-ci ayə).***

**"Səhər bir aylıq məsafəni qət edən, günortadan sonra yenə bir aylıq məsafəni qət edən küləyi də Süleymana ram etdik. Biz onun üçün mis qaynağını sel kimi axıtdıq. Rəbbinin izni ilə cinlərin bir qismi onun qabağında işləyirdi. Onlardan kim ki, Süleymana itaət etməyib əmrimizdən çıxırdısa, onu Cəhənnəm oduna düçar edirdik. Cinlər onun üçün istədiyi qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər** ***(Səba surəsi 12-13-cü ayələr).***

**“Həmçinin şeytanlardan olan müxtəlif nəqşlər vuran bənnaları, dalğıcları və başqalarını da zəncirlənmiş halda ona tabe etdik”*(Sad surəsi 37-38-ci ayələr).***

Cinlərin görmələri, danışmaları, hətta elm məclislərinə qatılmaları, öz qövmlərini İslama dəvət etmələri də varid olmuşdur.

**“Bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına yolladıq. Onlar onu dinləməyə gəldikdə bir-birinə: “Susun, qulaq asaq!” – dedilər. Quran oxunub qurtardıqdan sonra isə xəbərdar etmək məqsədilə öz tayfalarının yanına qayıtdılar. Onlar dedilər: “Ey qövmümüz! Biz, həqiqətən də, Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiqləyən, haqqa və düz yola yönəldən bir Kitab dinlədik! Ey qövmümüz! Allahın təbliğatçısını qəbul edin və ona iman gətirin ki, Allah günahlarınızı bağışlasın və sizi ağrılı-acılı əzabdan qurtarsın!” *(əl-Əhqaf surəsi 29-31-ci ayələr)***

Cinlərin qeybi bilməmələri barəsində fikirlər isə qəti yanlışdır. Uca Allah bunu Öz kitabında belə açıqlamışdır:

**“Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!” *(ən-Nəml surəsi 14-cü ayə)***

Onların qeyb barədə bildikləri şeylər isə ancaq səmada Allahın kainat və məxluqatla bağlı əmrlərini müzakirə edən mələklərlərin söhbətinə qulaq asaraq oğurladıqları şeylərdir. Onlar bu söhbətləri eşitdikdən sonra mələklər onları yandıran alovla təqib edirlər.

**“Və onu hər bir asi şeytandan mühafizə etdik. Onlar artıq ali topluma mələklərin söhbətlərinə qulaq asa bilməzlər və hər tərəfdən üstlərinə yandırıb yaxan alovlar yağdırılar**

**və oradan qovularlar. Onları uzun sürəcək bir əzab gözləyir"** ***(əs-Saffat surəsi 7-9-cu ayələr).***

Sünnədə varid olmuşdur ki, bu alovlu təqibdən sağ çıxan nadir şeytanlar, ancaq cüzi xəbərləri özlərindən altda olan şeytanlara ötürürlər. O şeytanlar da həmin xəbərləri falçıya, sehrbaza, kahinə ötürürlər. Falçılar da həmin tək-tük xəbərlərdən istifadə etməklə yanlarına gələnləri yüzlərlə yalan xəbərlə aldadırlar.

## MÜSƏLMAN VƏ KAFİR CİNLƏR

Artıq bundan əvvəlki hissələrdə cinlərin atəşdən yaradılmış olduqlarını, amma, eynilə insan kimi yeyib-içdiyini və törədiyini bildirmişdik. Bu hissədə isə cinlərin bir qisminin insanlar kimi mömin, bir qisminin də kafir olduğunu, onların da hidayət olunduqlarını və yoldan azdıqlarını sizə anladacağıq.

Bilməliyik ki, Uca Allah insanlardan olan peyğəmbərləri həmçinin, cinlərə də peyğəmbər olaraq göndərmişdir. İnsanlara vacib olduğu kimi cinlərə də peyğəmbərlərə itaət etmək və onlara endirilən kitablara tabe olmaq vacib olmuşdur.

Uca Allah bunu Öz kitabında belə anlatmışdır: **“Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi xəbər verən və bu gününüzlə qarşılaşacağınız barədə sizə xəbərdarlıq edən elçilər gəlmədimi?” Onlar deyəcəklər: “Biz öz əleyhimizə şahidlik edirik!” Onları dünya həyatı aldatdı və onlar kafir olduqları barədə özlərinə qarşı şəhadət verdilər”** ***(əl-Ənam surəsi 130-cu ayə).***

Uca Allah Öz kitabında cinlərin Musa peyğəmbərin yanına gəldikləri kimi, Muhəmməd peyğəmbərin də (Allahın salavatı və salamı bütün peyğəmbərlərin üzərinə olsun) yanına gəlmələrini, peyğəmbərdən Quran dinlədiklərini, sonra isə eşitdikləri Quranı qayıdaraq öz qövmlərinə oxuduqlarını, onları da İslama dəvət etdiklərini belə anlatmışdır:

**“Bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına yolladıq. Onlar onu dinləməyə gəldikdə bir-birinə: "Susun, qulaq asaq!" – dedilər. Quran oxunub**

**qurtardıqdan sonra isə xəbərdar etmək məqsədilə öz tayfalarının yanına qayıtdılar. Onlar dedilər: "Ey qövmümüz! Biz, həqiqətən də, Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiqləyən, haqqa və düz yola yönəldən bir Kitab dinlədik! Ey qövmümüz! Allahın təbliğatçısını qəbul edin və ona iman gətirin ki, Allah günahlarınızı bağışlasın və sizi ağrılı-acılı əzabdan qurtarsın!" Allahın təbliğatçısını qəbul etməyən kimsə yer üzündə Allahdan yaxa qurtara bilməz və Ondan başqa onun himayəçi dostları da olmaz. Onlar aşkar azğınlıq içindədirlər"** ***(əl-Əhqaf surəsi 29-32-ci ayələr).***

Uca Allah bildirir ki, cinlər Quranı dinləyərkən bir çox xətalarını başa düşürlər, tövbə edirlər, iman gətirirlər, Allahı uca tutub Ona qayıdırlar. Ən çox peşman olduqları günah isə Allaha şərik qoşmaları idi. Onlar bir daha Allaha şərik qoşmayacaqlarına söz verirlər. Həmçinin, İblisin onları aldadaraq Allaha müxtəlif iftiralar atmasını, yalanlar danışmasını etiraf edirlər. Uca Allah bütün bunları Öz kitabinda belə bəyan etmişdir:

**"De: "Mənə vəhy olundu ki, cinlərdən bir dəstə Quranı dinlədikdən sonra öz tayfalarına qayıdıb dedilər: "Həqiqətən, biz heyrətamiz bir Quran dinlədik! O, doğru yola yönəldir. Biz ona inandıq və bundan sonra əsla kimsəni Rəbbimizə şərik qoşmayacağıq. Doğrudan da, Rəbbimizin əzəməti çox yüksəkdir. O, nə zövcə, nə də övlad sahibi olmamışdır. Bizim səfehimiz İblis Allaha qarşı hədsiz yalanlar danışır. Biz zənnə qapılaraq düşünürdük ki, insanlar da, cinlər də Allaha iftira atmazlar"** ***(əl-Cin surəsi 1-5-ci ayələr).***

Cinlər həmçinin bilirdilər ki, onların həddi aşmaqlarının səbəblərindən biri də insanların onlara sığınması, onlardan kömək diləmələri idi. Bununla da onlar düşünürdülər ki, artıq onlar insanlardan üstündürlər. Halbuki, babaları İblis insanların babası Adəmə səcdə olunmaqla əmr olunmuşdu. İnsanlar isə öz fəzilətlərini unudaraq artıq cinlərə ibadət etməyə başlamış, bu da onların azğınlıqlarını artırmış və insanlar da onların qarşısında zəlil olmuşdular.
**"Həqiqətən, insanlardan bəziləri cinlərin bəzilərinə sığınırdılar. Bu isə onların azğınlığını artırırdı"** ***(əl-Cin surəsi 6-cı ayə).***
Həmçinin, cinlərdən aldadılanlar Allahın ölənləri diriltməyəcəyinə inanar, bu baxımdan da kafir olardılar.
**"Onlar da siz zənn etdiyiniz kimi, elə düşünürdülər ki, Allah ölənləri diriltməyəcəkdir"** ***(əl-Cin surəsi 7-ci ayə).***
Daha sonra cinlər bildirirlər ki, əvvəllər onlar səmaya qalxar və bəzi sahələrində oturardılar və orada mələklərin Allahın əmrləri barədə etdikləri müzakirələrə oğrun-oğrun qulaq asar, onları bəzi kahinlərə çatdırardılar. Kahinlər də bu xəbərlərdən bəzilərini insanlara çatdırdıqda, insanlar kahinlərin qeybi bildiklərini sanar və onlara inanardılar. Quran ayələrini oğrun-oğrun dinləməsinlər deyə, Quran nazil olmağa başladıqda, səma sərt gözətçilər ve cinləri yandırıb yaxan alovla doldurulur. Onlar artıq səmadan heç nəyə qulaq asa bilmir, nəyin baş verdiyini anlamır, yerdəkilər üçün nəyin xeyir, nəyin şərr olacağını bilmirdilər.
**"Biz səmaya qalxdıqda onun sərt gözətçilər və yandırıb-yaxan alovlarla dolu olduğunun şahidi olduq. Biz əvvəllər gizlicə qulaq asmaq üçün göyün bəzi sahələrində oturardıq. Amma kim bunu indi etmək istəsə, o, pusquda**

**gözləyən yandırıcı alova rast gələr. Biz bilmirik, bununla yerdəkilərə pislik etmək qəsd edilmişdir, yoxsa Rəbbi onları doğru yola yönəltmək istəmişdir?”** ***(əl-Cin surəsi 8-10-cu ayələr)***

Daha sonra cinlər iqrar edirlər ki, onların arasında kafir və möminlər, şərr əhli və xeyir əhli vardır. Onlardan da bir qism haqqı eşitdikdə ona tabe olur və müsəlmanlardan olaraq doğru yolu izləyir.

**“Əlbəttə, aramızda xeyirxah əməl sahibləri də, onlar kimi olmayanlar da var. Biz ayrı-ayrı yollar tutmuşuq. Yəqin etdik ki, yer üzündə Allahdan yaxa qurtara bilmərik. Göyə qaçmalı olsaq da Onun əzabından yayına bilməyəcəyik. Biz doğru yolu göstərən rəhbəri eşitdiyimiz zaman ona iman gətirdik. Rəbbinə iman gətirən, nə savabının azalmasından, nə də haqsızlığa uğramaqdan qorxmaz. Sözsüz ki, bizlərdən müsəlmanlar da var, doğru yoldan sapanlar da. Müsəlman olan şəxslər doğru yol tutanlardır. Doğru yoldan sapanlar Cəhənnəm üçün odun olacaqlar". Əgər onlar o yolda sabit qalsaydılar, Biz onlara bol-bol su verərdik. Belə edərdik ki, bununla onları sınayaq. Kim öz Rəbbinin zikrindən üz döndərərsə, O, həmin şəxsi şiddətli bir əzaba məruz qoyar”** ***(əl-Cin surəsi 11-17-ci ayələr)*****.**

Allah Rəsulunun ﷺ yanına gəlib onun söhbətini və oxuduğu Quranı dinləyən cin tayfası, Nusaybin cinlərindəndir. Bəzi rəvayətlərdə izah edildiyinə görə bunlar Bəsrə cinlərindən imiş. Peyğəmbər, Məkkə səmtlərindən Batnı Nəhlədə səhabələrinə namaz qıldıranda onlar onun yanına getmiş və oxuduğu Qurani-Kərimi dinləmişdilər.

Sonra Peyğəmbər ﷺ bütün gecə cinlərlə söhbət etmişdir, özlərinə və heyvanlarına halal olan qidalar barəsində

soruşduqda peyğəmbər onlara  belə buyurmuşdur: *"Allaha dua etdim ki, tapdığınız bütün sümüklərdə sizin üçün, təzəklərdə də heyvanlarınız üçün mütləq qida olsun"* (Buxari 3571)

Peyğəmbər ﷺ insanlara sümük parçaları və heyvan təzəyi ilə təmizlənməyi qadağan etmiş və *«Bunlar sizin qardaşlarınız cinlərin azuqəsidir.» demişdir. Ayrıca cinlərin məskəni olduğu üçün yollarda idrar etməkdən (su başına çıxmaqdan) da insanları çəkindirmişdir".*

Peyğəmbər həmçinin, yanına gələn cinlərə ər-Rahmən surəsini oxumuş və: **"Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?"** ayəsi oxunduqda onlar bu qarşılığı vermişdilər: «Xeyr, Ey Rəbbimiz, sənin nemətlərindən heç bir şeyi yalanlamırıq. Həmd, Sənədir.»

Allah Rəsulu ﷺ insanlara Rahmən surəsini oxuduqda onlar cavab vermədikləri zaman cinləri onlara qarşı tərifləyərək belə demişdir: «Cinlər daha gözəl cavab verirdilər, onlara; **"Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?"** ayəsini oxuduğum zaman mütləq bu cavabı verirdilər: «Xeyr, Ey Rəbbimiz, sənin nemətlərindən heç birini yalan saymırıq. Həmd Sənədir»

Cinlərdən mömin olanlarının Cənnətə girib-girməyəcəyi və ya onlardan Allaha itaət edənlərin mükafatlarının yalnız Cəhənnəm əzabını görməyəcəkləri barəsində ixtilaflar vardır. Səhih hədisə görə onlar, Cənnətə girəcəklər. Quranın bu ayələri bu barədə ümumi, bir məlumat verməkdədir.

**"Rəbbinin hüzurunda durmaqdan qorxanları iki Cənnət bağı gözləyir. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?"** ***(ər-Rahmən surəsini 46-47-ci ayələr)***

Uca Allah bununla onlara lütf etdiyini bəyan etmişdir. Əgər cinlərin mömin olanları Cənnətə girməyəcək olsaydılar, Uca

Allah bəxş edəcəyi nemətləri onlara xatırlatmaz və buna ehtiyac duymazdı. Bu da bu mövzuda bizim üçün müstəqil və yetərli bir dəlildir. Doğrusunu Allah bilir.
Səhabə Əbu Səid əl-Xudri rəvayət edir ki, Peyğəmbər ona belə demişdir: «*Görürəm ki, sən qoyunları və çölü çox sevirsən. Əgər səhrada və qoyunlarının arasında olduqda da azan oxusan səsini yüksəlt, çünki, müəzzinin səsini eşidən cinlər, insanlar və hər şey, Qiyamət günündə onun lehinə şahidlik edəcək.*»
Əbu Səid dedi ki: «Mən bu sözü, şəxsən Allah Rəsulundan eşitdim.»
Cinlərin kafir olanlarına gəlincə, şeytanlar onlardırlar. Şeytanların başçısı da insanlığın atası Adəm peyğəmbərə düşmən olan İblisdir. İblisin həm özü, həm də nəsli Adəm peyğəmbərə və onun zürriyətinə düşmən kəsilmişdir.
**"Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– demişdik. İblisdən başqa hamısı səcdə etdi. İblis cinlərdən idi. O, Rəbbinin əmrinə boyun əymədi. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və onun nəslini özünüzə dostmu tutursunuz? Zalımlar üçün bu necə də yarıtmaz mübadilədir!"** ***(əl-Kəhf surəsi 50-ci ayə)***
Insanlar da onlara tabe olmağa, itaət etməyə, onlara dua etməyə, onlara ibadət etməyə davam edir, onların hiyləsinə uyaraq duada, ibadətdə heç bir dəlil olmadan Allaha şərik qoşurlar.
Uca Allah babamız Adəmə səcdə etmədiyinə görə İblisə düşmən olmuşdur. Bir çox insanlar da Allaha şükür etmək əvəzinə Ona asi olur, Allahın və insanların düşməni olan şeytanlara itaət edir, onlar kimi kafir olurlar.
**"Ey Adəm övladları! Məgər Mən sizə buyurmadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşməninizdir,**

**Mənə ibadət edin! Doğru yol budur!"** ***(Yasin surəsi 60-61-ci ayələr)***

Şeytana ibadət etmək, ona tabe olmaq və onun əmrlərini yerinə yetirməkdir.

Allaha ibadət etmək isə Allaha itaət etmək, Onu ibadətdə təkləşdirmək, Ona duada heç kimi, heç nəyi şərik qoşmamaq, Allahın qadağalarından çəkinib, əmrlərini yerinə yetirməkdir.

Ey insan! Uca Allah sənə görə İblisə və şeytanlara düşmənçilik elan etmiş, səni də düşmənini tanımağa səsləmiş, ondan həzər etməyi əmr etmişdir. Allaha qayıt və şeytanı özünə dost tutma! O səni Cəhənnəmə səsləyir!

**"Şübhəsiz ki, şeytan sizin düşməninizdir, siz də onu düşmən sayın. O öz tərəfdarlarını Od sakini olmağa çağırır"** ***(əl-Fatir surəsi 6-cı ayə).***

# İBLİSİN TAXTI
# - - -
# CİNLƏRİN MƏKANI

Hörmətli oxucu! Bundan əvvəlki hissələrdə sizə cinlərin növləri, vəsfləri, yeməkləri, içməkləri və qüdrətləri haqqında danışmışdıq. Bu bölümdə isə cinlərin ola biləcəyi, yaşadıqları bütün məkanlar barəsində sizlərə xəbər verəcəyik.

Qurandan aydın olduğu kimi, lənətlənmiş şeytan bu anda yaşayır və Qiyamət gününə qədər düşməni olan insanı yoldan çıxartmağa çalışır. Dənizin üzərində bir taxtı var. Taxtına oturur və şeytan cinlərdən olan qoşunlarını Yer üzərində fəsad salmaq üçün təyinatlandırır.

Allah Elçisi ﷺ belə demişdir:

*"İblisin taxtı dəniz üzərindədir. O hər gün dəstələrini göndərir və bu dəstələr insanlar arasında fitnə törədirlər. Bunlardan İblis yanında ən yüksək mövqeyə sahib olanlar insanları fitnəyə salmaqda ən böyük olanlardır" (Əhməd).*

Başqa bir hədisdə rəvayət edilir ki, Allah Elçisi ﷺ İbn Səidə belə bir sual verir:

- *"Nə görürsən?*

- Su üzərində bir taxt görürəm (və ya dəniz üzərində, ətrafında ilanlar olan bir taxt görürəm) deyə ibn Səid cavab verir.

- *Bu taxt, İblisin taxtıdir" (Əhməd).*

Həmçinin, Allah Elçisi ﷺ belə buyurmuşdur:
*"Şeytan taxtını su üzərində qurur, sonra dəstələrini insanlara göndərir. Dəstələrindən onun yanında ən yaxın mərtəbədə olanlar, insanlar arasında ən çox fitnə salanlardır. Bunlardan biri şeytanın yanına gəlir və: "Filankəslə o qədər məşğul oldum, nəhayət onu bu və bu halda buraxıb gəldim" deyər. İblis də ona "Vallahi, bir şey etmiş deyilsən" deyə cavab verir. Bir başqası gəlir, o da: "Mən filan adamla məşğul oldum, nəhayət onunla ailəsini bir-birindən ayırdım" deyər. İblis onu yanına yaxınlaşdırar və ona: "Sən nə yaxşı etmisən" deyə cavab verər" (Muslim).*
Yəni, insan və cin şeytanların etdiyi cadu və tilsim yolu ilə dostlar və sevgililərin bir-birlərindən ayrılmasına səbəb olurlar.
Bunun üçün də İblis, insanları və dostları bir-birindən ayıran və bu yolda səy göstərən şeytan şəbəkələrinə təşəkkür edir, Allahın qınadığı və tənqid etdiyi işi edən kimsəni tərifləyir, Allahın xoşlamadığı şeydən xoşlanır. Allahın lənəti onun üzərinə olsun.
Uca Allah da hər şər və pisliyin səbəb və məqsədlərinə qarşı qoruyucu bir qalxan olaraq mühafizə surələrini nazil etmişdir. Xüsusilə, bu surə ucalığı ilə pisliklərə və şərə qarşı qoruyucu bir qalxandır.
**"De: "Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların məbuduna! Vəsvəsə verənin, (Allahın adı çəkiləndə isə hövlündən) geri çəkilən (şeytanın) şərindən. (O şeytan) ki, insanların ürəklərinə vəsvəsə salır, cinlərdən də (olur), insanlardan da!"** ***(ən-Nəs surəsi)***

Növbəti bölümlərdə biz şeytanlardan qorunmaq üçün Peyğəmbərimizə vəhy edilmiş xüsusi surə və zikrlər barəsində geniş danışacağıq.
Ümumi olaraq demək olar ki, Allaha şərik qoşulan, Allahdan qeyrisinə ibadət edilən, dua edilən, qurban kəsilən, Allah zikr edilməyən və ya Allahın zikri qadağan olunan, tərk edilmiş yerlər, qəbiristanlıqlar, nəcasət və zibilxanalar cin və şeytanların olduqları yerlədir.
Səhih xəbərlərə görə cinlərin ola biləcəyi yerləri sizlərə təqdim edirik:

• ***Səma***

Ənəsdən Allah Elçisinin ﷺ belə buyurduğu rəvayət edilir: *"Allah səmada bir işin görülməsini qərara aldıqda mələklər onun buyruğuna təslimiyyət göstərərək qanadlarını qaya üzərindəki zəncir kimi çırparlar. Ürəklərindəki qorxu keçib getdikdə "Rəbbiniz nə dedi?" deyə soruşarlar. Cavab verən deyər: "Haqqı söylədi. O Uca və Üstündür". Bunu xəbər oğurluğu edən cinlər və şeytanlar eşidərlər. Onlar üst-üstə düşərlər.* (Rəvayət edən Süfyan əllərini üst-üstə qoyub barmaqlarının arasını açaraq göstərdi): *"Bu sözləri eşidib bir qat altlarındakına xəbər verər. Altlarındakı da bir qat altındakına çatdırar. Beləliklə, sonuncuya çatar. Bəzən xəbəri çatdırmadan əvvəl atəş topası, xəbər oğrusunu yandırar. Bəzən də atəş topası yetişmədən xəbəri altdakı oğruya çatdırar, o da bu gerçək xəbərə yüz yalan xəbər qatar, filan gündə belə və belə demədimi? deyilər. Xəbər oğrusu da göydən duyduğu gerçək xəbəri təsdiq edər".*

Bu hədis cinlərin səmanın müxtəlif qatlarında ola bilmələrinə, uçmaq qabiliyyətlərinə işarə edir.
Bu mənaya növbəti ayə də dəlalət etməkdədir.
**"Biz əvvəllər gizlicə qulaq asmaq üçün göyün bəzi sahələrində oturardıq. Amma kim bunu indi etmək istəsə, o, pusquda gözləyən yandırıcı alova rast gələr"** ***(əl-Cin surəsi 9-cu ayə).***

***• İnsan bədəni***

Allah Elçisi ﷺ belə buyurmuşdur:
*"Həqiqətən, şeytan Adəmoğlunun qanının dolaşdığı yerlərdə dolaşır".* Cinlər insana daxil ola bilir və onun bədənində müvəqqəti və ya ölənə qədər məskunlaşa bilirlər.
Başqa bir hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur:
*"Biriniz yuxudan oyandıqda, dəstəmaz alarkən qoy burun boşluğunu 3 dəfə su ilə təmizləsin, çünki şeytan insanın burun boşluğunda gecələyir." (Buxari)*

***• Kəndlər, dağlar, mağaralar, dağ və dəniz arası məntəqələr***

"Bilal ibn Həris adlı səhabə rəvayət edir ki, bir gün Allah Elçisi ilə səfərə çıxmışdıq. Peyğəmbər ﷺ öz ehtiyacını ödəmək üçün bizdən uzaqlaşdı, mən də su qabında ona su apardım. Suyu götürüb uzaqlaşdı. Bu zaman olduğu yerdən əvvəllər mislini eşitmədiyim tərzdə mübahisə səsləri və səs küy eşitdim. Sonra gəldi və dedi:
- *Bilal?*
- "Bəli" dedim.
- *Su gətirmisən?*

- “Bəli” dedim.
- *"Düz etmisən"* dedi.
Sonra suyu götürdü və dəstəmaz aldı. Mən belə dedim:
- Ey Allahın elçisi, heç vaxt eşitmədiyim qədər şiddətli olan mübahisə səsləri və səs küy eşitdim.
Belə dedi:
- *“Müsəlman və müşrik cinlər yanımda mübahisə etdilər, sonra məndən onlara yaşayacaqları yerləri təyin etməmi istədilər. Müsəlman cinlər üçün kəndlər və dağları, müşrik cinlər üçün dağlar və dənizlərin arasında yaşamağı təyin etdim.”*

***• Gün və kölgənin qarışdığı yerlər***

Başqa bir rəvayətdə Allah Elçisi ﷺ kölgə və gün işığının qarışdığı yerlərdə oturmaqdan çəkinirmiş və *“Bura şeytanın oturduğu yerdir”* demişdir.
Alimlər bu hədisin müxtəlif mənalarının olduğunu söyləsələr də bu mənalar arasında ən gözəli budur: “Bu cür yer kölgənin gün işığı ilə, işıq düşən yerin də kölgə ilə pozulduğu yerlərdir. Şeytan öz xasiyyətinə uyğun olaraq nizamı pozulmuş halları, yerləri sevir”.

***• İçərisində zikr edilməyən, itlərin və canlı məxluqların rəsimlərinin olduğu evlər, kilsə və digər küfr məbədləri***

Peyğəmbər ﷺ Bəqərə və Ali-İmran surələrinin çox oxunduğu evlərə şeytanların girmədiklərini bildirmişdir.
Bu hədis ona dəlalət edir ki, şeytanlar bu surələrin oxunmadığı evlərə girə bilirlər. Digər hədisdə isə mələklərin

köpək və canlı məxluqların (insanların, heyvanların, quşların və s.) olduğu evlərə girmədiyi bildirilir.

Alimlər bildirmişlər ki, mələklərin olmadığı yerlər şeytanların, cinlərin olacağı yerlərdir. Çünki şeytanlar mələklərdən qorxurlar, onlardan qaçırlar.

O cümlədən Peyğəmbər ﷺ içərisində insan və digər canlı məxluqların surətlərinin, rəsmlərinin, habelə heykəllərin olmasına görə kilsə və sinaqoqlarda namaz qılmağı qadağan etmişdir.

Həm mələklərin bu cür ibadətgahlara girməməsinə görə, həm də bu yerlərdə Allaha şərik qoşulduğuna görə şeytan və cinlər belə yerlərdə çox olurlar.

Evlərə gəldikdə, bəzən müsəlman cinlər də ilan formasında evlərdə, evlərin yanında yaşayırlar. Bu barədə biz artıq ikinci bölümdə söhbət açmışdıq. Çıxmaları barədə xəbərdarlıq etmədən onları öldürmək olmaz.

• ***Ayaq yolları***

Peyğəmbər ﷺ belə buyurmuşdur:

*"Ayaqyollarında yaşayanlar (yəni, şeytanlar) vardır. Biriniz ayaq yoluna daxil olduqda belə desin: "Allaha pis ve pisliklərdən, erkək və dişi şeytanlardan sığınıram".*

Bu zikri etməklə orada olduğumuz zaman onlardan qorunmuş oluruq.

***• Bazarlar***

Peyğəmbərdən nəql edilən bir hədisdə *"şeytanın bazarlarda yumurtaladığı"* söylənilir. Lakin ərəb dilində bu söz qəti olaraq yumurtalamağa dəlalət etmir. *(Ədvəul-bəyan, 3/1218)*

Bəzi alimlər hədisin şeytanların bazarlarda məskən salmasına dəlalət etdiyini söyləyirlər.

Digər hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: *"Bacarırsansa, nə bazara ən birinci girən ol, nə də oradan ən son çıxan ol. Ora şeytanların hərb yeridir və orada bayraqlarını ucaldırlar." (Muslim)*

Alimlər bu hədisə əsasən, bazarlarda hiylələrin, fırıldağın və digər münkər əməllərin olduğuna görə şeytanların o yerləri sevdiklərini söyləmişlər.

***• Səhra və çöllüklər***

Rəvayət edilir ki, Peyğəmbər ﷺ Əbu Səid əl-Xudriyə belə demişdir: *"Görürəm ki, sən qoyunları və çölü çox sevirsən. Əgər səhrada və qoyunlarının arasında olduqda da azan oxusan səsini yüksəlt, çünki müəzzinin səsini eşidən cinlər, insanlar və hər şey, Qiyamət günündə onun lehinə şahidlik edəcək".*

***• Divarlarda, yerdə olan dəlik-deşiklər***

Cinlərin məskəni olduğu üçün yollarda kiçik su başına çıxmaqdan da insanları çəkindirmişdir. Bu qadağa istər şaquli, istərsə də yerin altında yerə paralel olan dəlikləri əhatə edir.

***• Hamamlar, qəbiristanlıqlar, zibilxanalar, dəvə tövlələri***

Peyğəmbər ﷺ hamamlar və qəbiristanlıqlardan başqa yer üzünün hər bir yerində namaz qılmağın icazəli olduğunu bildirmişdir.

Bir çox alimlər, bu yerlərdə namaz qılmağın qadağa olunma səbəblərindən orada şeytanların yaşamasını göstərmişlər.

Zibilxanalarda namaz qılmağın qadağan olunması barədə də bəzi hədislər varid olmuşdur. Bir çox alimlər nəcasət yerləri olduqlarına görə şeytanların bu cür yerlərdə məskunlaşdığını söyləmişlər.

Peyğəmbər ﷺ dəvə tövlələri barədə belə söyləmişdir:

*"Qoyun tövlələrində namaz qıla bilərsiz, lakin dəvə tövlələrində qılmayın."*

*"Dəvə tövlələrində namaz qılmayın, çünki onlar cindən (şeytandan) yaranmışlar."*

Yəni, fitrətlərində şeytanda olan xüsusiyyətlər vardır. Bir çox alimlər bu hədislərə əsasən dəvə tövlələrində cin, şeytanların olduqlarını söyləmişlər.

***• Şirk edilən yerlər***

**"Onlar Allahı qoyub, yalnız qadın bütlərə yalvarır və yalnız üsyankar şeytana dua edirlər"** ***(ən-Nisa surəsi 117-ci ayə).***

Səhabələrdən və tabiinlərdən olan bir çox alimlər bu ayənin təfsirində hər bir bütün yanında və hər bir Allaha şərik qoşulan yerdə şeytanın olduğunu söyləmişlər. Ayədəki "inəs" sözü qadın bütlər mənası ilə yanaşı digər bütün cansız ilahları da əhatə edir. Taxta, dəmir, daş, qəbir, cansız

cəsəd və s. bunlar da "inəs" sözünün mənasına daxildir. Bu cür çağırılan hər bir şeyin əhatəsində şeytanlar olur.
Bu cür yerləri tanımaqla, həmçinin cinlərdən, şeytanlardan qorunma yollarını öyrənməklə, insanlar onların mənfi təsirlərindən qoruna bilər.
Gələn hissələrdə isə onların hansı təsir formalarının olması, kimlərə təsir etmələri və onlardan qorunmaq üçün varid olmuş zikr və digər vasitələr barədə söhbət açacağıq. Allah bizləri insan və cin şeytanların şərrindən qorusun!